# Rasim NƏBİOĞLU - 70



Hörmətli Rasim müəllim!

Sizi - istedadlı yazıçı, publisist, tərcüməçi, tənqidçi və ədəbiyyatşünas alimi 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1977-ci ildə Azərbaycan Dillər Universitetinin ingilis-Azərbaycan dilləri fakültəsini bitirmisiniz. "Mahiyyət, təzahür" adlı ilk məqaləniz həmin universitetin "Bilik" qəzetində dərc edilmişdir. Şabran və Siyəzən məktəblərində pedaqoji fəaliyyət göstərmiş, eyni zamanda rayon "Qurucu" qəzetinin ştatdankənar müxbiri olmusunuz. 1982-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına, 1988-ci ildə ikiillik rejissorluq kurslarına qəbul olunmusunuz. 1991-ci ildə "Hüseyn Cavidin estetik idealı" mövzusunda dissertasiya müdafiə etmisiniz. 1994-1997-ci illərdə doktoranturaya çıxmısınız. Bədii və elmi tərcümə, habelə tərcüməşünaslıq sahəsində səmərəli fəaliyyət göstərirsiniz. Dünya ədəbiyyatı nümunələrini dilimizə, həmçinin Anar, Yusif Səmədoğlu, Ağarəhim Rəhimov, Əmir Pəhləvan kimi tanınmış yazıçılarımızın əsərlərini ingilis dilinə çevirmisiniz. Dörd yüzdən artıq məqalə, oçerk və bədii yazınız işıq üzü görmüşdür. Esse, mənsur şeir və hekayələriniz maraqla qarşılanmışdır. Elmi əsərləriniz və tərcümələriniz ölkəmizin hüdudlarından kənarda, o cümlədən, ABŞ, İran, Rusiya, Türkiyədə nəşr olunmuşdur. "İngilis dilindən vəsait", "İngilis dili - testlər", "İngiliscə-rusca-azərbaycanca danışıq kitabçası", "Hüseyn Cavidin estetik idealı", "Dərəzarat" (nəzm, nəsr, tərcümə), "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (I kitab), "Mədəniyyət. İncəsənət. Ədəbiyyat" (II kitab) və s. kitablarınız işıq üzü görmüşdür. Ümumiyyətlə, 20 orijinal, tərcümə və tərtib kitabının, həmçinin bir neçə tədris proqramının müəllifisiniz.

Ölkəmizin müxtəlif universitetində filoloji-linqvistik və pedaqoji-metodiki fənlərdən, habelə etika, estetika, fəlsəfə, sosiologiya, kulturologiya və s. predmetlərdən mühazirə oxumuş və dərs demisiniz. Hazırda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda dosent, aparıcı elmi işçisiniz. Cənubi-Rusiya Humanitar Universitetinin (Rostov-Don şəhəri) fəxri professoru, Avrasiya İnzibati Elmlər Akademiyasının (Moskva şəhəri) müxbir üzvüsünüz. Bir sıra mətbuat orqanlarında şöbə müdiri, redaktor və baş redaktor kimi fəaliyyət göstərmisiniz. "Qızıl qələm", "Həsən bəy Zərdabi" və s. KİV (media) mükafatlarına layiq görülmüsünüz.

Hörmətli Rasim müəllim!

Şizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 18 mart.- S. 27.